*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 441-447*

https://doi.org/10.62837/2026.3.441

**ZÜMRÜD VAHID QIZI QASIMOVA**
**zumrud.vahid@mail.ru**
**https://orcid.org/0009-0001-3458-7941**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
**Xarici dillər kafedrasının müəllimi**

# XXI ƏSR AMERİKA ƏDƏBİYYATININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

## XÜLASƏ

**Açar sözlər: Amerika nəsri, 11 sentyabr, Metamodernizm, Travma nəzəriyyəsi, Yeni səmimiyyət, İqtisadi böhran, Pandemiya ədəbiyyatı.**

Bu məqalədə XXI əsr Amerika ədəbiyyatının formalaşmasına təkan verən siyasi, sosial, ekoloji amillər və onların fonunda yaranan ədəbi-bədii nümunələr vasitəsilə müasir Amerika ədəbiyyatına ədəbi səyahət edilir.

Məqalədə göstərilir ki, XXI əsr Amerika nəsrindəki ədəbi nümünələr 11 sentyabr terroru, 2008-ci il maliyyə böhranı, rəqəmsal transformasiya və COVID-19 pandemiyası kimi qlobal sarsıntıların birbaşa təzahüründən ibarətdir. Məqalə milli kimlik, sosial ədalət, eləcə də texnologiya və insanın qarşılıqlı münasibətləri kimi mövzularla səciyyələnən Amerika ədəbiyyatının postmodernizm ironiyasından metamodernizmin "yeni səmimiyyətinə" keçid prosesini və bu keçidin ədəbi narrativlərə təsirini işıqlandırır. Müəyyən edilmişdir ki, travma ilə başlayan müasir Amerika nəsrinin qəhrəmanı pandemiya ədəbiyyatı ilə daxili sükuta çəkilərək, daha səmimi və etik məsuliyyət daşıyan bir forma ilə irəliləməyə davam edir.

### Giriş.

Amerika ədəbiyyatı 21-ci əsrə keçid edərkən təkcə təqvim dəyişikliyi ilə deyil, həm də ədəbi paradiqmaların köklü şəkildə dəyişdiyi bir yüzilliyə qədəm qoydu. Müasir Amerika ədəbiyyatının əsasını təşkil edən irqi və gender kimliyi, sosial ədalət, texnologiya və onların insanla qarşılıqlı münasibətlərini əks etdirən təməl mövzular təsadüfi xarakter daşımayıb, müəyyən tarixi-sosial zərurətdən qaynaqlanmışdır. Bütün bunlar 21-ci əsr Amerika cəmiyyətinin daxili və xarici təbəddülatlarının birbaşa əks-sədasıdır. 11 sentyabr 2001-ci il terror hücumları, 2008-ci il maliyyə böhranı, sosial medianın yüksəlişi və COVID-19 pandemiyası yalnız ədəbi əsərlərin tematik məzmununu formalaşdırmamış, eyni zamanda narrativ strukturlara və ədəbi üslublara da təsir etmişdir.

Bir sözlə, 21-ci əsrin tarixi hadisələri Amerika ədəbi kanonunun transformasiyasına birbaşa təkan vermişdir. Ədəbiyyatda multikultural elementlərin artması etnik, irqi və mədəni müxtəlifliyə malik müəlliflərin səslərinin daha ucadan eşidilməsinə şərait yaratmışdır. Postmodernizmin ironiyası və şübhəçiliyi isə yerini

Metamodernizmin “yeni səmimiyyətinə” təhvil vermişdir. Bu və digər inkişaflar Amerika ədəbiyyatında uzunmüddətli yenilik ənənəsini davam etdirməklə yanaşı, texnologiya, qloballaşma və ekoloji böhran kimi müasir problemlərə də toxunur.

**Müasir Amerika ədəbiyyatının öyrənilmə metodları.**

Məqalədə XXI əsr Amerika ədəbiyyatının inkişaf mərhələlərini izləmək üçün interdisiplinar metodoloji yanaşmalardan istifadə edilmişdir. Təqdim olunan nəzəri çərçivə və analitik yanaşmalar Amerika ədəbiyyatının zaman içərisində təkamülünü vizuallaşdırmağa kömək edir.

**Tarixi materializm** - Karl Marks tərəfindən irəli sürülmüş tarixi materializm nəzəriyyəsinə görə, maddi şərait və iqtisadi fəaliyyətlər tarixi dəyişikliklərin əsas hərəkətverici qüvvəsidir. Bu nəzəriyyə 2008-ci il maliyyə böhranı kimi sosial-iqtisadi hadisələrin ədəbi mövzulara və narrativlərə necə təsir etdiyini təhlil etmək üçün əhəmiyyətlidir.

Cəmiyyəti formalaşdıran maddi şərtlərin anlaşılması tədqiqatçılara ədəbiyyatın bu hadisələr nəticəsində yaranan iqtisadi bərabərsizlikləri və sinfi mübarizələri necə əks etdirdiyini və tənqid etdiyini araşdırmağa imkan verir.

**Travma nəzəriyyəsi** - Cathy Caruth tərəfindən inkişaf etdirilən travma nəzəriyyəsi travmatik hadisələrin fərdlərə və kollektiv yaddaşa təsirini, eləcə də narrativ strukturlara və mövzulara necə sirayət etdiyini araşdırır.

Bu nəzəriyyə xüsusilə 9/11-dən sonrakı dövr və COVID-19 pandemiyası zamanı yaranmış ədəbiyyatın öyrənilməsində tətbiq oluna bilər.

O, yazıçıların travma, itki və bərpa proseslərini necə təsvir etdiyini anlamağa və ədəbiyyatın kollektiv travmaların işlənməsi və yaddaşda saxlanılması üçün vasitə kimi rolunu araşdırmağa imkan yaradır

**Metamodernizm və Fenomenoloji yanaşma** - Postmodenist paradiqmanın süqutundan sonra 21-ci əsr Amerika ədəbiyyatı yeni bir mərhələyə - Timoteus Vermeulen və Robin van den Akker tərəfindən irəli sürülən Metamodernizm mərhələsinə addım atır (Vermeulen & van den Akker, 2010). Müasir Amerika ədəbiyyatının ədəbi qəhrəmanı artıq iki qütb - dünyanı dəyişmək istəyən modernizmin fanatik inamı ilə hər şeyin mənasız olduğunu düşünən postmodernizmin ironiyası - arasında daim rəqs (oscillation) etməyə başlayır. O, hər şeyin xaosdan və yalandan ibarət olduğunu dərk etsə də, “sanki” (as if) bir məna varmış kimi yaşamağa bütün səmimiyyəti ilə inanmağa çalışır. Bu səmimiyyət isə mətndə fərdin daxili aləmində məhz fenomenoloji yanaşma vasitəsilə dərk olunur, müəllif artıq oxucuya sadəcə bir hadisəni danışmır, insanın dünyanı və o hadisələri öz duyğuları və şüuru ilə necə qavradığını əks etdirir.

**Tarixi Hadisələr və Ədəbi Reaksiyalar.**

**1.Travma və Dəhşət Dalğası. “Yeni Səmimiyyət”in Yaranması.**

Metamodernist səmimiyyət axtarışı Amerika ədəbi mühitində heç də təsadüfi bir hadisə deyildi. O konkret bir travmanın- 11 sentyabr 2001-ci il terrorizminin-

nəticəsi kimi ortaya çıxmışdır. 21-ci əsr Amerika nəsrində "sıfır nöqtəsi" hesab olunan 11 sentyabr hadisələri postmodernizmin ironiyasını yerlə yeksan edərək ədəbiyyatda "Yeni Səmimiyyət" dövrünü başlatdı . Artıq kədər və travma zarafat edilməyəcək qədər gerçək və həqiqi idi.

Travma və dəhşət dalğası kimi xarakterizə olunan bu dövrün əsas qayəsi "Biz kimik?" və "Bizə nə oldu?" kimi sualları ətrafında cəm edən fərdi və kollektiv yaddaşın bərpasına cəhd idi. "Travma elə bir hadisədir ki, o baş verən anda dərk olunmur, yalnız sonradan "təkrarlanma" və "xatırlama" vasitəsilə bədii mətnə çevrilir" deyən Cathy Caruthun fikirlərinin təsdiqini (Caruth, 1996, s.17) Jonathan Safran Foerin "Extremely Loud and İncredibly Close" əsərində "dərk olunmayan ağrının gecikmiş cavabı" kimi görə bilirik (Foer, 2005). Əsərdə itki, kədər və yas prosesi 9 yaşlı Oskarın gözü ilə metamodernist səmimiyyətlə təsvir olunur. Müəllif dilin travma qarşısındakı acizliyini ifadə etmək üçün romanın strukturuna fotoşəkillər, rənglər və boşluqlar əlavə edərək vizuallaşdırmağa çalışmışdır.

Eləcə də, Don Delillonun "Falling Man" romanında terrorun yaratdığı psixoloji sarsıntı və bundan əziyyət çəkən fərdin öz gündəlik həyatına qayıda bilməməsi əks olunur. Romandakı "Yıxılan adam" şəhərin fərqli yerlərində özünü binalardan asmaqla o dəhşətli günü yenidən xatırlatmağa çalışaraq, bir növ "travma terapiyasını" həyata keçirir, bu reallığa dəfələrlə şahidlik edərək onun ağırlığını bölüşməyə çalışır (DeLillo, 2007) .

**2. İqtisadi Böhranın Bədii Əksi: Amerika Arzusunun İflası.**

Amerika ədəbiyyatındakı "Amerika arzusu" 2008-ci ildə maliyyə böhranı səbəbindən yenidən iflasa uğradı. Bu dövr ədəbiyyatı daha çox sinfi mübarizə və iqtisadi bərabərsizliyə fokuslanaraq, kapitalizmin bədii tənqidi ilə ön plana çıxır və öz əksini John Lanchesterin "Capital" (Lanchester, 2012) və Jess Walterin "The Financial Lives of the Poets" (Walter, 2009) romanlarında aydın şəkildə tapır. Bu əsərlərdə iqtisadi tənəzzülün yalnız bank sistemlərini deyil, həm də insanların bir-birinə olan inam və səmimiyyətini zədələməsini rahatlıqla görə bilirik. Lanchester iqtisadi böhranı sadəcə rəqəmlərlə təsvir etmir, o həm də Bankir Rocer Yauntun obrazı ilə kapitalizmin insan dəyərini necə tamamilə maddi qazanca bağladığının bədii nümünəsini yaradaraq, böhranın psixoloji gərginliyini də ifadə edir. Bankir Rocer Yaunt öz kimliyini qazandığı milyonlarla deyil, gözlədiyi "bonus"la (mükafatla) müəyyən edir. Bonusun azalması və ya yox olması onun üçün sadəcə pul itkisindən ibarət deyil, bu həm də özünü təsdiq etdiyi dünyasının dağılmasıdır.

**3.Sosial Hərəkatlar və Kimlik Siyasəti.**

Travmadan başlayan 21-ci əsr Amerika ədəbiyyatı maliyyə böhranından sonrakı illərdə sosial hərəkatlar, multikulturalizm və kimlik siyasəti kimi dövrə məxsus hadisələrdən qaynaqlanan mövzularla davam edir. Xüsusilə 2010-cu illərdən sonra güclənən "Black Lives Matter" (BLM) və #MeToo hərəkatları ədəbiyyatda kimlik siyasətini (identity politics) mərkəzə gətirərək, "insan" anlayışını sadəcə

universal bir varlıq deyil, həm də konkret irqi, cinsi və mədəni kimliyin daşıyıcısı kimi qələmə verirdi. Bu dövrdə Ta-Nehisi Coates epistolyar janrda yazdığı "Between the World and Me" əsərində afro-amerikalı kimliyinin Amerika cəmiyyətindəki yerini metamodernist "yeni səmimiyyət" prizmasından analiz edərək, irqçiliyin təkcə ideoloji deyil, həm də fiziki bir təcrübə olduğunu fenomenoloji şəkildə oxucuya çatdırır (Coates, 2015).

Sosial ədalətsizliyi və sistemli polis zorakılığını gənc bir qızın gözü ilə multikulturalizm müstəvisində təsvir edərək ədəbiyyatın bir "aktivizm vasitəsi"nə çevrilməsini nümayiş etdirən Angie Thomas isə "The Hate U Give" əsərində "kimlik" anlayışının artıq sabit deyil, mübarizə və dialoq prosesində formalaşan dinamik bir proses olduğunu ifadə edir. Müasir yazıçını hadisələrə artıq "bitərəf" qalmayan, əksinə cəmiyyətin ağrılı nöqtələrinə toxunan bir aktivist-müəllif kimi görən müəllif bununla Amerika ədəbi kanonunu daha da genişləndirir, əvvəllər marjinallaşdırılmış səsləri (minority voices) mərkəzə gətirirərək, onları qlobal insanlıq hekayəsinin ayrılmaz hissəsinə çevirir.

**4. Rəqəmsal Transformasiya və Kimliyin Fraqmentləşməsi**

XXI əsrin ikinci onilliyindən etibarən sosial media, rəqəmsal texnologiyaların sürətli inkişafı və qlobal ekoloji böhranın kəskinləşməsi Amerika nəsrinin tematik spektrini daha da mürəkkəbləşmişdir. İnsan şüurunun texnoloji vasitələrlə fraqmentləşməsi və "Antroposen" dövrünün (insanın yer kürəsinə mütləq və dağıdıcı müdaxiləsi) gətirdiyi ekzistensial təhdidlər bu dövr ədəbiyyatının məşğul olduğu məsələlərə çevrilməyə başlayır.

Rəqəmsal inqilab və kimliyin fraqmentləşməsi nəticəsində insan təfəkküründə zaman və məkan qavrayışı şəkil dəyişdirərək ədəbiyyatda "rəqəmsal tənhalıq" və virtual kimlik böhranı kimi öz əksini tapmışdır. Jennifer Egan "A Visit from the Goon Squad" (2010) əsərində yaddaşın və şəxsiyyətin rəqəmsal dövrdə necə parçalandığını sınaqdan keçirərək romanda bütöv bir fəsli "PowerPoint" təqdimatı şəklində yazır (Egan, 2010) və bununla da texnologiyanın bizim hekayə danışma qabiliyyətimizi və daxili dilimizi necə qəlibə saldığını nümayiş etdirir. Roman fərqli zamanlarda həyatlarının müxtəlif nöqtələrində yolları kəsişən , bir-birinə bağlı xarakterlərin var olduğu hissələrdən ibarətdir. Münasibətlərinin tez-tez dəyişdiyi və yenidən şəkilləndiyi bu xarakterlərin fərdi səsləri birləşərək sanki insan münasibətlərinin iç-içə olduğunun fərqinə varan bir simfoniya kimi səslənməyə başlayır. Egan bununla da insanın daxili hekayəsini artıq bütöv bir mətn kimi deyil, qırıq-qırıq slaydlar kimi göstərərək üslub yeniliyinə nail olur və bu yenilik metamodernist estetikanın bir parçası kimi texnoloji soyuqluqla insani duyğuların kəsişməsini vizuallaşdırmağa imkan yaradır. Eləcə də, Patricia Lockwood "No One Is Talking About This" (2021) romanında "portal" adlandırdığı internet dünyasının insan emosiyalarını necə ironik bir xaosa sürüklədiyini göstərərək vurğulayır ki, müasir insan həm hər kəslə ünsiyyətdədir, həm də heç vaxt olmadığı qədər tənhadır.

Burada fərdin həyəcan və duyğularının rəqəmsal səs-küy içində boğulmasının bədii təsviri metamodernizmin axtardığı "yeni səmimiyyətin"göstəricisinə çevrilir.

**5. Ekoloji Böhran və Cli-Fi Janrının Yüksəlişi.**

Qlobal istiləşmə və ekoloji fəlakətlərin artması Amerika ədəbiyyatında "Cli-Fi" (Climate Fiction) janrının önə çıxmasına təkan vermiş, insanın təbiətlə olan pozulmuş münasibətləri sorğulanmışdır. Richard Powers "The Overstory" romanında insan mərkəzli dünya görüşünü radikal şəkildə tənqid edərək, narrativin əsas hərəkətverici qüvvəsi kimi öz qəhrəmanlarını deyil, məhz ağaclar və meşə eko-sistemini ön planda saxlayır (Powers, 2018). Romanda ağaclar xarakterlərin həyatını bir-birinə bağlayır, bu xarakterlər isə bir-birinin üzərindən və altından keçərək öz kök və əlaqələrini axtaran, qarşılıqlı yardımlaşmanın arxasınca qaçan bir kök sistemi kimi çıxış edirlər. İqlim böhranı, meşəsizləşmə və ətraf mühit aktivizmi kimi mövzuları əhatə edən romanda müəllif insanın təbiət üzərindəki mülkiyyət və ağalıq iddiasını həm təbiətin, həm də insanın məhvinə aparan bir yol kimi təsvir edir və insanları bir ağacı bir insan qədər ciddi qəbul etməyə səsləyir.

**6. Pandemiya Ədəbiyyatı: Daxili Sükut və Kollektiv Həmrəylik Anlayışı.**

Nəhayət, 21-ci əsrin əvvələri Amerika ədəbiyyatında travma ilə başlayan aqressiv qorxu 2020-ci ildə başlayan ən qlobal və sarsıdıcı digər travma - COVID-19 pandemiyasının "daxili sükutu" ilə - əvəz olundu . Belə ki, əgər 11 sentyabr travması insanı xarici dünyaya qarşı qorxulu və aqressiv etmişdisə, pandemiya insanı öz daxili dünyası ilə üz-üzə qoydu. Bioloji təhdiddən daha çox "böyük laboratoriya" funksiyasını yerinə yetirən pandemiya ədəbiyyatının ədəbi manifesti hesab olunan Gary Shteyngart-ın "Our Country Friends" (2021) romanında müəllif bir bağ evinə sığınan bir qrup dostun hekayəsi üzərindən, fiziki təcridin insan ruhunda yaratdığı boşluğu və "toxunma" ehtiyacını analiz edərək müasir insanın bütün texnoloji "zirehlərini" (sosial media, karyera, sürətli həyat) çıxardığı zaman nə qədər kövrək olduğunu və onun yalnız kollektiv həmrəylik və səmimi ünsiyyət vasitəsilə sağala biləcəyini göstərir. Bəzi cəhətlərinə görə klassik rus romanlarını xatırladan bu əsərdə yazıçı əvvəlki əsərlərindən fərqli olaraq çoxsəsli müasir üslubdan istifadə etmir və onun bu seçimi əslində ortaya qoyduğu mövzu ilə tamamilə səsləşir. Hamımızın anlamadığı və nəzarət edə bilmədiyi böyük bir böhranın içində dünya mənasız və nəzarətsiz görünür, bu xaosda isə hər şeyi bilən nəqledici oxucuya ümumi mənzərəni göstərir, bəzən isə ironik şərhlər əlavə edir.

## NƏTİCƏ

XXI əsr Amerika nəsrinin inkişaf dinamikasını yenidən nəzərdən keçirdikdə aydın olur ki, ədəbiyyatı həyatın aynası hesab edən klassik tərif özünü bir daha doğruldur. Sadəcə estetik bir oyun və ya postmodernist ironiya vasitəsi olmaqdan çıxan müasir Amerika ədəbi nümunələri bəşəriyyətin üzləşdiyi qlobal travmaların emosional və etik emal mərkəzinə çevrilir. Tədqiqat boyu nəzərdən keçirilən 11

sentyabr terroru, 2008-ci il maliyyə böhranı, rəqəmsal tənhalıq və pandemiya reallığı sübut edir ki, müasir Amerika müəllifi artıq şəxsi uğur hekayələrinin deyil, kütləvi sağalmanın narrativini qurmağa çalışır.

**ZUMRUD QASIMOVA**

**ABSTRACT**

**21ST CENTURY AMERICAN LITERATURE: STAGES OF DEVELOPMENT**

This article is about contemporary American literature which sheds light on the various literary works formed by the influence of political, social, and environmental factors in the 21st century.

The study demonstrates that 21st-century American prose is a direct manifestation of global issues such as the September 11 terrorist attacks, the 2008 financial crisis, digital transformation, and the COVID-19 pandemic. The article highlights the transition of American literature which is characterized by various themes such as national identity, social justice, and the intersection of technology and humanity. It shows how literature finds new ways from the irony of Postmodernism to the "new sincerity" of Metamodernism, and analyzes the impact of this transformation on literary narratives. It is concluded that the new American prose which initially emerged through the lens of trauma, tried to encourage people to turn inward and explore their inner world through pandemic literature and move forward with a more sincere form characterized by ethical responsibility.

**Abstract Keywords: American prose, September 11, Metamodernism, Trauma theory, Economic crisis, Pandemic literature.**

**ЭТАПЫ РАЗВИТИЯ АМЕРИКАНСКОЙ ЛИТЕРАТУРЫ XXI ВЕКА.**

**АННОТАЦИЯ**

Данная статья посвящена современной американской литературе и освещает различные литературные произведения, сформированные под влиянием политических, социальных и экологических факторов XXI века.

Литературные образцы американской прозы XXI века являются прямым отражением таких глобальных событий, как теракты 11 сентября, финансовый кризис 2008 года, цифровая трансформация и пандемия COVID-19.В данной статье особо подчёркивается переход американской литературы ,который характеризуется различными темами,такие как национальная идентичность,

социальная справедливость и взаимоотношение человека, от постмодернистской иронии к «новой искренности» метамодернизма.

Установлено, что новая американская проза, которая возникла через прозу травмы, пыталась побудить людей обратиться внутрь себя и исследовать свой внутренний мир в рамках пандемической литературы, а также двигаться вперед в более искренней форме, характеризующейся этической ответственностью.

**Ключевые слова:** американская проза, 11 сентября, метамодернизм, теория травмы, экономический кризис, литература пандемии, новая искренность.

## ƏDƏBİYYAT SİYAHISI

1. Caruth, C. (1996). *Unclaimed Experience: Trauma, Narrative, and History*. Johns Hopkins University Press.
2. Coates, T. N. (2015). *Between the World and Me*. Spiegel & Grau.
3. DeLillo, D. (2007). *Falling Man*. Scribner.
4. Egan, J. (2010). *A Visit from the Goon Squad*. Knopf.
5. Foer, J. S. (2005). *Extremely Loud and Incredibly Close*. Houghton Mifflin.
6. Lanchester, J. (2012). *Capital*. W. W. Norton & Company.
7. Lockwood, P. (2021). *No One Is Talking About This*. Riverhead Books.
8. Powers, R. (2018). *The Overstory*. W. W. Norton & Company.
9. Shteyngart, G. (2021). *Our Country Friends*. Random House.
10. Thomas, A. (2017). *The Hate U Give*. Balzer + Bray.
11. Vermeulen, T., & van den Akker, R. (2010). Notes on metamodernism. *Journal of Aesthetics & Culture*, 2(1), 5677. https://doi.org/10.3402/jac.v2i0.5677
12. Walter, J. (2009). *The Financial Lives of the Poets*. Harper Perennial.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Cavidə Məmmədova**